# 85 yaşlı universitet






Dekabrın 24-də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yaranmasının 85 illik yubileyinə həsr edilən tədbir keçirilib.

Tədbir iştirakçıları öncə UNEC-in tələbə və əməkdaşlarının əl işlərindən ibarət rəsm, karikatura və kitab sərgisi ilə tanış olublar. Yubiley tədbiri Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Ümummilli lider Heydər Əliyevin 2002-ci ildə universitetə gəlişini xatırladan UNEC-in rektoru, professor Ədalət Muradov bildirib ki, universitetin 85 illik şərəfli yolunda iqtisad elminə mühüm töhfələr verən və xidmətlər göstərən qocaman professorlarımızın böyük əməyi var. Müəllim potensialının artırılmasının universitetin strateji hədəfi olduğunu deyən rektor, bu potensialın təkmilləşdirilməsi istiqamətində xeyli işlər görüldüyünü vurğulayıb. Rektor, həmçinin son iki ildə universitetdə əməkhaqqının 3 mərhələdə artırılması və hazırda pedaqoji heyətin orta əməkhaqqı göstəricisinin ali təhsil müəssisələri arasında ən yüksək olduğunu söyləyib. Qeyd edib ki, əməkhaqqı artımı son hədd deyil, əməkhaqqının bundan sonra da artırılması istiqamətində işlər gedir.

Universitetdə görülən işlərdən danışan rektor bildirib ki, UNEC müəllimlərinin ekspert qismində də fəaliyyət göstərməsinə təkan vermək üçün "UNEC ekspert" jurnalı təsis edilib. Növbəti ilin birinci rübündə jurnal işıq üzü görəcək.

"Ölkə Prezidenti İlham Əliyevin qarşımıza qoyduğu vəzifəni - Azərbaycan Dövlət İqtisad Universitetinin dünya səviyyəli universitetə çevrilməsi üçün bütün gücümüzü səfərbər edəcəyik" deyən rektor əlavə edib ki, UNEC-in 90 illik yubileyində "QS" reytinqində Top-1000 universitetlər sırasına yüksəlməsinə çalışacaqlar.

Təhsil naziri Mikayıl Cabbarov ali təhsilin inkişafına özünəməxsus töhfələr verən İqtisad Universitetinin ölkənin sosial-iqtisadi problemlərinin həlli sahəsində əhəmiyyətli rolu olduğunu bildirib. Nazir qeyd edib ki, qarşılaşdığımız iqtisadi çətinliklər şəraitində Azərbaycan iqtisadiyyatına bilikli, kreativ düşüncəli və qloballaşan dünyada biznes mühitini yaxşı bilən peşəkarlar lazımdır. Dünya təcrübəsi göstərir ki, istənilən dövlətin inkişaf səviyyəsini yüksək məhsul yaradan insan resursları müəyyən edir. İqtisad Universitetinin belə kadrlar hazırlamaq üçün gördüyü işlər təqdirəlayiqdir. "İnanıram ki, 85 yaşlı İqtisad Universitetinin əsas amalı ali təhsilin beynəlxalq standartlara uyğunlaşmasıdır" deyən M.Cabbarov bildirib ki, bu gün ali təhsilin beynəlmiləlləşməsi qlobal prosesdir. Eyni zamanda, təhsildə elmi potensialın qorunub saxlanılması və eləcə də gənc elmi pedaqoji kadrların hazırlanması öndə duran məsələlərdən biridir: "Bu baxımdan UNEC-də həyata keçirilən "Gənc müəllimlər" layihəsi bizi çox sevindirir. 121 gənc müəllim işə qəbul edilib ki, onların da əksəriyyəti Avropa, ABŞ, Kanada kimi ölkələrin nüfuzlu universitetlərinin məzunlarıdır. Bu proses davam etdirilməli və digər ali təhsil müəssisələrini də əhatə etməlidir. İnanıram ki, xaricdə təhsil alan gənc mütəxəssislərin elmi-pedaqoji fəaliyyətə cəlb edilməsi, təhsildəki problemlərin həllinə əsaslı surətdə kömək edəcək".

M.Cabbarov müstəqil Azərbaycanın davamlı inkişafı naminə kollektivin gənc iqtisadçı kadrların yetişdirilməsi istiqamətində bundan sonra da uğurla çalışacaqlarına ümidvar olduğunu bildirib.

M.Cabbarov çıxışını bu sözlərlə yekunlaşdırıb: "Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ad günüdür. Mən bütün təhsil ictimaiyyəti adından cənab Prezidenti təbrik edirəm. Hesab edirəm ki, bizim ölkə başçısı üçün edə biləcəyimiz ən böyük töhfə öz işimizə vicdan və peşəkarlıqla yanaşmağımızdır".

UNEC-in 85 illik yubileyi münasibətilə təhsil naziri Mikayıl Cabbarovun əmri ilə universitetin bir qrup əməkdaşı "Qabaqcıl təhsil işçisi" döş nişanı və fəxri fərmanla təltif edilib.

Beynəlxalq Türk Akademiyasının rəhbəri, professor Darhan Kıdıralı yubiley münasibətilə UNEC-in professor-müəllim heyətini təbrik edib. Bu günlərdə UNEC-də təsis edilən Türk Dünyası İqtisadçılar Birliyinin əhəmiyyətindən söz açan D.Kıdıralı bildirib ki, türk dünyası iqtisadçıları arasındakı əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi bu ölkələrin gələcək iqtisadi inkişafına mühüm töhfələr verəcək.

UNEC-in Azərbaycan tarixi kafedrasının müdiri, professor Hidayət Cəfərov universitetin kecdiyi 85 illik tarixi yola nəzər salıb.

Sonra UNEC-də yeni yaradılan diskurs.az - virtual iqtisadi forumun təqdimatı keçirilib. Tədbirdə universitetin tarixini əks etdirən "UNEC-85 fakt" videoçarxı nümayiş etdirilib.

Yubiley tədbirində UNEC-in Yaradıcılıq Mərkəzinin üzvlərinin ifası maraqla qarşılanıb.